**TİPOLOGİYA 1. Saxta virtual valyuta ticarətinin təşkili ilə vətəndaşların etibarından sui-istifadə edərək onlara məxsus pul vəsaitlərinin bir qrup şəxs tərəfindən ələ keçirilərək mənimsənilməsi**

Bədniyyətli şəxslər "A" xarici ölkəsinin ofşor ərazisində fəaliyyət sahəsi "virtual valyutaların yaradılması" olan "ABC" şirkətini (rəhbəri üçüncü ölkə vətəndaşıdır) qeydiyyatdan keçirmişlər. Bunun ardınca müvafiq şəxslər yerli "B" ölkəsində reklam agentliyi adı altında "ADV" adlı şirkət təsis etmiş və sosial şəbəkələrdə yalan məlumat yayaraq onu "ABC" şirkətinin "B" ölkəsindəki rəsmi reklam partnyoru kimi təqdim etmişlər.

Daha sonra "ABC" şirkətinin "ADV" şirkəti tərəfindən sosial şəbəkələr üzərindən təbliği vasitəsilə mövcud olmayan "XYZ Coin" adlı kriptovalyutanın güya beynəlxalq valyuta bazarında (birjalarda) real satışını təşkil etdiklərinə vətəndaşları inandırmış və nəticədə müvafiq kriptovalyutaya investisiya yatıran şəxslərə şişirdilmiş yüksək gəlirlər vəd etməklə vətəndaşların külli miqdarda pul vəsaitlərini mənimsəməyə nail olmuşlar.

İlk əvvəl, mütəşəkkil dəstə üzvləri "XYZ Coin" almaq istəyən şəxsə kriptovalyutanın dəyəri həcmində ödənişi həyata keçirdikdən sonra "ABC" şirkətinin qeydiyyatdan keçdiyi ölkəyə məxsus xarici domendə yaradılmış saxta "XYZCoin.com" veb-saytında köçürmə və məxaric imkanlarına malik (lakin nağdlaşdırma zamanı yüksək komissiya tətbiq olunan) elektron pul cüzdanı yaratmışlar.

Dəstə üzvləri şəxslərin "XYZ Coin" əldə edilməsi üsulu olaraq 3 seçim irəli sürürlər: "ADV" şirkətinin ofisinə müraciət edərək birbaşa, ödəniş terminallarından şirkətlə əlaqəli şəxslərin kartlarına mədaxil edilməsi və kartdan karta köçürmə edilməsi.

Həmçinin "XYZ Coin" əldə etmiş şəxslərə "ABC" şirkəti 3 formada gəlir götürmə imkanlarını (və vədini) təklif edir: "XYZ Coin"in alışı üçün yatırılmış vəsaitə uyğun dividend ödənişi (müəyyən müddətdən sonra), müvafiq kriptovalyuta alışına digər şəxslərin cəlb olunmasına görə mükafat ödənişi və gələcəkdə "XYZ Coin"in xarici birjaya çıxarılmasından sonra yüksək gəlirlərin ödənişi.

Bədniyyətli şəxslər qanunsuz gəlirlərinin həcmini artırmaq məqsədilə bir neçə aydan bir "XYZ Coin"in qiymətini süni şəkildə qaldırmışlar (ilk öncə 1, sonra 2, daha sonra 3 xarici valyuta vahidinə). Onlar müvafiq qiymət artımının səbəbini "XYZ Coin"in xarici birjaya çıxarılması ilə əlaqələndirmişlər (reallıqda isə "ABC" şirkəti hər hansı kripto-birjada siyahıya daxil olunmamışdır). Dəstə üzvləri bununla da kifayətlənməyərək, "XYZ Coin"i almış şəxslərin vəsaitlərinin bir hissəsini öz xeyirlərinə süni şəkildə azaltmaq məqsədilə "XYZCoin.com" veb-saytında sözügedən "kriptovalyuta"nı əldə etmiş şəxslərə həmin "kriptovalyuta"ları müvafiq birjada mübadilə edəcəkləri halda "endirim" olaraq "XYZCoin.com"da olan 2 ədəd "XYZ Coin"i birjada yerləşdirilmiş 1 ədəd "XYZ Coin"ə dəyişmə təklifi etmişlər.

Bundan əlavə, müəyyən tarixdən sonrakı dövrdən etibarən "XYZ Coin"i əldə etmiş şəxslərə "XYZCoin.com" veb-saytında xidmət edilməsinə görə aylıq komissiyaların ödənilməsi tələbi də müəyyən olunmuşdur (bu yol ilə iki mindən çox şəxsin yüz min valyuta vahidindən çox komissiya ödənişini mənimsəyiblər).

"XYZ Coin"nin alışı məqsədilə "ADV" şirkətinin əməkdaşlarının kartlarına edilmiş vəsaitər bir neçə milyon valyuta vahidi təşkil etmişdir ki, bunların da 2/3-i ödəniş terminalları vasitəsi ilə edilən mədaxillərdən ibarət olub.

Araşdırma nəticəsində müvafiq birjada bir çox digər saxta kriptovalyutalardan (əslində sadə tokendən) istifadə olunması halları, eləcə də "ADV" şirkətinin təsisçisi olan şəxsin və onunla əlaqəli bir neçə şəxsin əvvəllər dələduzluq əməlinə görə ittiham olunması, "ABC" şirkətinə edilmiş kart ödənişlərinin şirkətin əsas fəaliyyət sahəsinə uyğun gəlməyən "məsləhət" təyinatlı olması faktları müəyyən edilmişdir.

Qeyd olunan mexanizm ilə dəstə üzvləri “B” ölkəsində on minlərlə şəxsin kriptovalyuta ticarəti adı altında maliyyə piramidasına analoji olan şəbəkəyə qoşulmasına nail olmuşlar.

**İstifadə olunmuş mexanizmlər**

- yerli kredit təşkilatları;
- xarici kredit təşkilatları;
- onlayn ödəniş sistemi.

**İstifadə olunmuş alətlər**

- bank kartları;
- ödəniş terminalları;
- elektron cüzdanlar;
- köçürmə.

**İstifadə olunmuş üsullar**

- qanuni kriptovalyuta ticarətini imitasiya edən və maliyyə piramidası elementləri olan sxem sayəsində böyük mənfəət vəd edən müxtəlif qeyri-real vasitələrlə maliyyə savadlılığı və texniki bilikləri aşağı olan şəxslərin şirnikləndirilməsi;
- ofşor ərazilərdən, sosial şəbəkələrdən və izlənilməsi çətin olan (anonimlik xarakterinə malik) riskli maliyyə alətlərindən istifadə olunması.

**İndikatorlar**

- sosial şəbəkələr vasitəsilə maliyyə savadlılığı aşağı olan insanlar arasında kütləvi təşviqin aparılması;
- müvafiq kriptovalyuta alışına digər şəxslərin cəlb olunmasına görə mükafat ödənişini təklif etməklə, maliyyə piramidası sxeminə analoji sxemdən istifadə olunması və şəbəkə iştirakçılarına real olmayan böyük mənfəətin vəd edilməsi;
- şirkətin fəaliyyət sahəsi “vritual valyutaların yaradılması” olaraq bəyan edilsə də, bunun əvəzinə, qısa müddətdə, asan üsulla yaradılmış tokenin vritual valyuta olaraq təqdim olunması və birjada müvafiq tokenin başqa şəxsə ötürülməsini şəbəkə üzvlərinə vritual valyutanın satışı kimi qələmə verilməsi;
- reallıqda şirkətin hər hansı kripto-birjada siyahıya daxil edilməməsi;
- ölkə xaricində yaradılan saxta kriptovalyutanın (tokenin) beynəlxalq birjalarda ticarətinin aparılmasına dair yalan məlumatın ictimaiyyətə çatdırılması, reallıqda isə müvafiq kriptovalyutanın yalnız yerli ölkədə satışının olması (daha doğrusu, belə satış təəssüratının yaradılması);
- reklam agentliyi adı ilə kriptovalyuta satışının aparılması;
- vergidən yayınma məqsədi ilə yerli ölkənin müvafiq vergi orqanında qeydiyyatdan keçmədən fəaliyyətin göstərilməsi və hüquqi şəxsə aid əməliyyatların fiziki şəxs hesabları üzərindən aparılması.

**Saxta virtual valyuta (token) ticarətinin təşkili ilə vətəndaşların etibarından sui-istifadə edərək onlara məxsus pul vəsaitlərinin bir qrup şəxs tərəfindən ələ keçirilərək mənimsənilməsi sxemi**

